Şəxsi Portretlər
Qaçqınlar Öz Dünyalarının Portretini Çəkirlər
Betti Bleyer

Mənbə: Azerbaijan İnternational jurnalı - Aİ 5.1 (Yaz 1997)
© Azerbaijan International

Fotoşəkillər Azərbaycan qaçqınları arasında çox nadir qənimət sayılır. Çünki onların çoxu qısa bir xəbərdarlıq nəticəsində yanlız canlarını qurtarmaq üçün hər şeyi arxada qoyaraq tez-tələsik evlərini tərk etmişlər. Onları keçmişlə əlaqələndirən, xatirələrindən, valideynlərinin, nənə-babalrının və erkən uşaqlıq çağlarının şəkillərindən məhrum etmək onlar üçün daha bir faciəvi itkidir.





Azərbaycan qaçqınlarına həsr olunmuş bir qədər əvvəlki nömrələrimizin birində (bax: Aİ 2.1, Yanvar, 1994, "İnamsızlıq Dolu Qış") biz qaçqınların özləri tərəfindən çəkilən və həyatlarını öz gördükləri kimi nümayiş etdirən foto şəkillər dərc etmişdik. Bu şəkillər qaçqınların qəzet və jurnal səhifələrini dolduran stereotip şəkillərindən hədsiz dərəcədə fərqlənirdi. Kasıbçılıq içərisində yaşamalarına baxmayaraq bu həvəskar fotoqraflar öz ləyaqətlərini ifadə etməyi bacarmışdılar.

Şəxsi portretlər o qədər müvəffəqiyyətli alınmışdı ki, biz düz dörd il sonra bu işi təkrarlamaq qərarına gəldik. Beləliklə fevral ayında biz Sabirabad rayonunda bir nömrəli çadır düşərgəsinə və Telmankənd qəsəbəsinə yollandıq. 1993-cü ildə salınmış və 12000 əhalisi olan Sabirabad çadır şəhərciyi Azərbaycan çadır şəhərciklərinin içərisində ən böyüyüdür. Burada indi insanlar çiy kərpicdən hazırlanmış bir otaqlı sığınacaqlarda yaşayırlar. Telmankənd isə bir neçə ay bundan əvvəl Rilif İnternəşnl və UNHCR tərəfindən tamamlanan nisbətən kiçik və yeni qəsəbədir. Telmankənddə 150-yə yaxın ailə mişar daşından tikilmiş bir otaqlı evlərdə yaşayırlar.

Keçən nömrəmizdə çap etdiyimiz şəkilləri göstərdikdən sonra kömək üçün könüllü axtarmaqda çətinlik çəkmədik. Bir dəfə istifadəyə yarayan "birdəfəlik" 35 mm, 27 kadrlı "KodakFunSaver" markalı aparatları payladıq və onların hər birinə bütün çəkdikləri şəkillərdən verməyi söz verdik.

Nəticələri təhlil edərkən qeyd etmək lazımdır ki, qaçqınlar şəkillərinin mövzusunu özləri seçirdilər. Aşağıda onların həyatın öhdəsindən necə gəldikləri və onda necə məna tapdıqlarını təsvir edən bir neçə nümunə göstərilmişdir.

**Fotoşəkillər İnsanlar Deməkdir**



Azərbaycanlılara görə fotoşəkillər insanların sinonimidir. Əgər sən onlara hər hansı bir səhnənin və ya obyektin şəklini göstərsən, onlar səndən insanların niyə əks olunmadığını soruşarlar. Çəkilmiş yüzlərlə şəkildən yalnız ikisində insan şəkli yox idi. Bunlardan biri toyuq-cücələr ilə dolu yeşiyin yaxından çəkilmiş şəkli, digəri isə 11 yaşlı bir uşaq tərəfindən çəkilən və hər bir evin əsas hissəsində yerləşən kerosin plitəsinin üzərində olan çaydan şəkli idi.

**Qadınlar Tərbiyəçi Kimi**

Qadınların tərbiyəçİ rolu hamıya məlumdur. Heç zaman bitməyən yemək hazırlamaq, paltar yumaq kimi işlərlə yanaşı, qadınlar dörd və ya daha çox ailə üzvlərinin yaşadığı darısqal evlərini təmiz və səliqəli saxlamağa qadirdirlər. Yataq yerləri həmişə səliqəli və təmiz şəkildə örtülü olur, yorğanlar və yerə salınan xalça və palazlar hədsiz dərəcədə təmizdir. Onların yaşayış yerlərinin çoxunda ev ab-havası var. Əlbəttə ki, bu qaçqın qadınların sayəsində mümkün olmuşdur. Bir sözlə onlar çadırlarda ailə həyatının lövbəridirlər.

**Maddi Mülkiyyətdə Uyğunsuzluq**

Bəzi ailələrdə televizor, çarpayı dəstləri olduğu halda, digərlərində isə döşəmə üzərində yeyir və hətta yatırlar. Qaçmamışdan qabaq hazırlıq görməyə müvəffəq olanlar daha rahat şəraitə malik idilər. Yardım təşkilatlarının verdiklərindən başqa bir çox qaçqınlar ötən dörd il ərzində heç bir məişət əşyaları əldə edə bilməmişlər.

**Adətlər Hələ Də Təsir Gücünü Saxlayır**

Maddi mülkiyyətin çatışmazlığına baxmayaraq, qaçqın həyatı Azərbaycan mədəniyyəti üçün bir göstəricidir. Qonaqpərvərlik hələ də adətlərin ən şərəflisidir. İmkan olmadığından çay az verilsə də, o, qonaqpərvərliyin əsasını təşkil edir. Həmçinin, dua etməyi və Quran oxumağu öyrənən gənclərin şəkillərdən göründüyü kimi din çadırlardakı insanlar arasında yayılır.

**Estetikaya Pərəstiş**

Hətta bu cansıxıcı mühitdə də gözəllik yaratmaq üçün təbii bir istək vardır. Bunu hər yerdə, divarlarda asılmış plakatlardan, yaxşı yığılmış çarpayı və ya əllə toxunmuş

xalçadan hiss etmək olar. Şəxsi görünuş də qiymətləndirilir və insanlar cəlbedici görünmək üçün imkanları daxilində əllərindən gələni edirlər. Gənc qadınlar dodaq boyasından istifadə edir və saçlarını dəblə yığmaq üçün yaradıcı yollar axtarıb tapmağa çalışırlar. Burada kiçik güzgülər qənimət sayılır.

Çıxardığımız yüzlərlə şəkildən qaçqınları daha çox aşağıdakılarının əks etdirdiyini zənn edərək onları sizə təqdim edirik. Bu şəkillər qaçqınların necə dəhşətli psixoloji və ya hər hansı bir vasitə ilə həyatla bacarmaq üçün yollar tapdıqlarını göstərir.

---

Tərcümə: Ülviyyə Məmmədova
Yoxladı: Gulnar Aydəmirova
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova